

# Kölgə böyüdürəm şam işığında...

***

Bu payıza məktub yazıb ağaclar,
Məktub yazıb yarpaqların adından.
Yarpaqların son duası, son andı,
bir də özü- ayrıldığı qadından.

Bu payıza məktub yazıb ağaclar,
Küləklərin nalsız çapan atından...
Yazıb,
yazıb,
yazıb ki,
yuxusuna balta girib bu gecə,
yaman qorxub, yuxu çıxıb yadından...

Bu payıza məktub yazıb ağaclar...
Budağını qırıb yazıb məktubu,
öz qanını sorub yazıb məktubu...
Son saralmış yarpağına yazıbmış,
Göz gəzdirib sonra pozub məktubu.

...Ayrıldığı qadının
solmuş ayaq izini
görüb ayaq saxlayıb
bir də,
bir də yazıb,
özün asıb ağaclar...

***

Yeni qanad açıb yanaqlarımda,
Tökmə gülüşümün qanını, Tanrı.
Kölgə böyüdürəm şam işığında,
Alma kölgəmin də canını, Tanrı.

Dualar ovucda çəkilir dara...
Dəyişsən ünvanı yaz alınlara.
Qiblə axtarırsan, dön insanlara,
Çevir öz bəndənə yönünü, Tanrı.

Can alma, sənin də bizdə canın var,
...Göydə də, yerdə də adın-sanın var.
Bilirəm, sənin də din-imanın var,
Dəyişmə,
dəyişmə dinini, Tanrı!

***

Gəl,
göz yaşlarımızı bir yerdə dəfn edək,
kölgələrimiz qazsın qəbrini.

Nə amansız olduq biz,
xatirələrimizi də ayırdıq bir-birindən.

Səbrimizin dərisini soyduq
payızın sonuncu həftəsi.
Qoyduq, üzü üstə qoyduq,
saçlarımızdan asılan göy üzünü də...

Tanrının qələmini qırdıq,
incəlib qopan yerindən...

Yandıracağam bütün arzularımı,
bir qədəh şərab işığında.
Gəl,
üşüyən alın yazımıza sarı gedək...
Bir kəndir atıb
yellənək bəlkə
çiçəkləyən göy qurşağında?!

**Tural Turan**